# Azərbaycan Ermənistanın son müqavimət imkanlarını da qırdı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Ermənistanda iyunun 20-nə təyin edilmiş növbədənkənar parlament seçkilərinə hazırlıq davam edir. Seçki kampaniyasında əsas rəqabətin mövcud hakimiyyət və "Qarabağ klanı" arasında getməsi gözlənilir. Seçicilərin dəstəyini qazanmaq üçün Nikol Paşinyan diqqəti daha çox sosial-iqtisadi inkişafa yönəltməyə çalışır.**

"Qarabağ klanı" isə Ermənistanın 44 günlük müharibədə məğlubiyyətində Paşinyan iqtidarını günahlandıraraq, revanşist mövqe sərgiləməklə cəmiyyətdə dəstək qazanmağa çalışır. Amma belə mövqe Ermənistan üçün yeni problemlərdən başqa heç nə vəd etmir.

**Revanşistlərə sonuncu xəbərdarlıq...**

Azərbaycan dəfələrlə ən yüksək səviyyədə bəyan edib ki, postmüharibə dövründə Ermənistanla əməkdaşlığa hazırdır. Əks addımlara, o cümlədən bəzi erməni dairələrinin revanş cəhdlərinə isə çox sərt cavab veriləcək. Elə Prezident İlham Əliyev də Dövlət Sərhəd Xidmətinin Cəbrayılda yeni hərbi hissəsinin açılışında iştirakı zamanı bu xüsusda Ermənistana növbəti dəfə açıq mesaj verdi: "Əfsuslar olsun ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara, bax buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək".

Bu gün Ermənistanda revanşist mövqe sərgiləyən daha çox "Qarabağ klanı"dır. Onlar 44 gün davam edən müharibədə hələ də Ermənistanın məğlubiyyətinin əsas səbəbkarı qismində məhz Nikol Paşinyanı təqdim edərək, bununla cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışırlar. Lakin Ermənistan müxalifəti tərəfindən ötən il noyabrın 10-dan sonra təşkil edilən etiraz aksiyalarına, bütün gözləntilərin əksinə olaraq, getdikcə az sayda adamın qatılması erməni cəmiyyətinin Paşinyanın siyasi əleyhdarları ilə eyni mövqeni bölüşmədiyini göstərir. Təhlillər bunun əsas səbəbi kimi Ermənistan cəmiyyətinin artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasına qarşı olması ilə birbaşa bağlı olduğunu üzə çıxarır. Müxalif qüvvələr Qarabağ məsələsində revanşist mövqedən çıxış etdikləri, müharibənin yenidən başlanıla biləcəyi haqda fikir sərgilədikləri halda, cəmiyyətdə mütləq əksəriyyət əks mövqedən çıxış edir. Erməni cəmiyyətində böyük çoxluq qəbul edir ki, Azərbaycanla yeni savaş Ermənistanı daha böyük fəlakətlər girdabına sürükləyəcək, o cümlədən çoxsaylı insan itkisi ilə qarşılaşmasına səbəb olacaq. Bu kontekstdə erməni cəmiyyəti 44 günlük müharibə zamanı yaşadıqlarının yenidən təkrarlanmasını istəmir. Elə bundan irəli gəlir ki, müxalifətin revanşist çağırışlarına cəmiyyət dəstək nümayiş etdirmir. Erməni mediası yazır ki, "Qarabağ klanı" və onun təmsilçiləri cəmiyyətdə heç bir avtoritet sahibi deyil və sərgilədikləri mövqe ciddi qəbul edilmir.

Qeyd edək ki, "Qarabağ klanı"ndan Ermənistanın sabiq prezidenti Robert Köçəryan Paşinyanı seçkilərdə devirmək iddiasındadır. Lakin erməni cəmiyyəti, eləcə də digər müxalif partiyaların yer aldığı "Vətənin xilası uğrunda hərəkat"da təmsil olunan qüvvələr Köçəryanı Paşinyana qarşı çıxacaq əsas lider qismində qəbul etmək istəmir. O, erməni xalqının cəlladı, terrorçu və Ermənistanı satan siyasətçi kimi qəbul edilir. Bundan başqa, Köçəryanın və tərəfdarlarının müharibənin gedişində Paşinyanın satqınçılıq mövqeyindən çıxış etməsi barədə iddiaları da cəmiyyət, hətta baş nazirə müxalif olan bəzi siyasi qüvvələr tərəfindən qəbul edilmir. Onlar bu xüsusda hansısa faktın olmadığını açıq bəyan edirlər. İndi Ermənistanda etiraflar da artır ki, 44 günlük müharibədə məğlubiyyətin əsas səbəbi Azərbaycanın kifayət qədər güclü, müasir orduya malik olması olub. Qeyd edilən etiraflar Köçəryanın və digər müxalif qüvvələrin Paşinyanın satqın obrazının yaradılması istiqamətində cəhdlərini sürətlə iflasa uğradır. Elə bu da "Qarabağ klanı"nın və ümumilikdə müxalifətin cəmiyyətdə dəstək qazanmaq şanslarını heçə endirir. Erməni cəmiyyəti və beynəlxalq ictimaiyyət 44 günlük müharibədə Ermənistanın məğlubiyyətinin obyektiv səbəbdən qaynaqlandığını qəbul edir. Bu səbəbdən Köçəryan və tərəfdarlarının baş verənlərə görə bütün günahın Paşinyanın üzərində olması ilə bağlı təbliğatı bu qüvvələr üçün istənilən effekti vermir. Bu vəziyyətdə Köçəryanın və digər müxalif qüvvələrin Nikol Paşinyanı hakimiyyətdən devirməsi müşkül sayılır. Deməli, Ermənistanda revanşist qüvvələrin fiaskosu qaçılmazdır və onlar Azərbaycana qarşı hansısa ciddi addım da ata bilməz.

**Bakı xoş mövqe nümayiş etdirir...**

Təhlillər göstərir ki, Nikol Paşinyanın hakimiyyətdə qalmasının və Ermənistanın xilaskarı olmasının əsas şərti 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyannamələrinin şərtlərinə tam əməl etməsi, Azərbaycanla münasibətlərin normallaşması istiqamətində Bakının istəkləri əsasında fəaliyyətini davam etdirməsindən keçir. Bu fikirlər Cənub-Şərqi Asiya regionunda tanınmış nəşrlərdən olan "New Straits Times" qəzetində "Ermənistan rəhbərliyinin təfəkkürü dəyişmədən sülhə nail olmaq çətindir" sərlövhəli məqalədə də xüsusi olaraq vurğulanır. Məqalədə tarix boyunca Azərbaycanla münasibətində Ermənistanın etibarlı qonşuluq nümayiş etdirmədiyi, "Böyük Ermənistan" ideologiyasının təsiri ilə ötən əsrin əvvəllərindən 44 günlük Vətən müharibəsinə qədər günahsız azərbaycanlıları qətlə yetirdiyi, xarici havadarların dəstəyilə dəfələrlə Azərbaycan




torpaqlarını işğal etdiyi qeyd olunur: "Lakin 2020-ci il 10 noyabr tarixli bəyanatın imzalanmasından sonra Prezident İlham Əliyevin bu sənədi mahiyyət etibarilə müharibədən sonrakı dövr üçün Azərbaycanla Ermənistan arasında qarşılıqlı inam və davamlı əməkdaşlığı təşviq etmək gücünə malik de-fakto sülh sazişi hesab etdiyini bildirib. Qanlı müharibənin başa çatmasından qısa müddət sonra Prezident İlham Əliyev sülh və əməkdaşlıq yönündə birmənalı mövqe və böyük cəsarət nümayiş etdirib, bu səpkidə Kəlbəcərdə qanunsuz məskunlaşmış ermənilərin rayonu tərk etməsi üçün üçtərəfli bəyanatda nəzərdə tutulan vaxtdan əlavə daha 10 gün möhlət verilib. Əsirlərin və saxlanılan digər ermənilərin geri qaytarılması, 1400-dən çox erməni hərbçisinin cəsədlərinin Ermənistana təhvil verilməsi, Gorus-Qafan yolunun işğaldan azad edilmiş və hazırda Azərbaycan Dövlət Sərhəd Xidmətinin nəzarətində olan hissəsindən Ermənistan vətəndaşlarının istifadəsi üçün icazənin verilməsi də Azərbaycanın sülh niyyətinin göstəricisidir. Eləcə də Rusiya təbii qazının Ermənistana nəqli üçün Azərbaycan ərazisindən istifadəyə şəraitin yaradılması kimi mühüm addımlar atılıb. Lakin qonşu ölkələr arasında davamlı sülh və əməkdaşlıq münasibətlərinin birtərəfli qaydada təmin olunması mümkünsüzdür. İrəvan da müvafiq addımlar atmalıdır. İndilikdə bu müşahidə edilmir. Ermənistanın bu münasibəti müharibə sonrası ruhdan düşmə və yaxud hər hansı siyasi rəhbərliyin travma sonrası davranış pozuntusu kimi qəbul edilməməlidir. Bu məsələ, əsasən, Ermənistanın siyasi mədəniyyətində Azərbaycana qarşı uzun illərdir kök salmış zərərli ideallarla əlaqədardır. Lakin bu vəziyyətin müalicəsinin yükü Ermənistan əhalisinin, bu prosesin təşviq edilməsi məsuliyyəti isə beynəlxalq dairələrin üzərinə düşür. Sülh prosesi ilə bağlı təşəbbüskarlığın təxribata məruz qalmasında erməni diasporunun da xüsusi rolu var. Ermənistan rəhbərliyi mütəmadi şəkildə diaspor dairələrinin törətdiyi təxribatlardan faydalanaraq, gündəlik yaşayış ehtiyacları üçün mübarizə aparan sadə ermənilərə təsir göstərir. Lakin bu vəziyyət daha çox Ermənistan üçün zərərlidir".

**Baş separatçı qorxu içindədir...**

İndi Ermənistan üçün əsas məsələ Azərbaycanla mehriban qonşuluq şəraitində yaşaya bilməkdən ötrü əməli fəaliyyət göstərməkdən ibarət olmalıdır. Ermənistan onu da qəbul etməlidir ki, Qarabağ məsələsi artıq başa çatıb. Yaxın tezlikdə Azərbaycan Qarabağ üzərində tam nəzarəti bərpa edəcək. Bunu şərtləndirən əsas səbəblərdən biri də odur ki, Azərbaycanın yardımı olmadan Qarabağ ermənilərinin burada yaşaması mümkün deyil. Qarabağdakı separatçıların lideri Araik Arutyunyanın son etirafları da bunu təsdiq edir. Arutyunyan indiki şərtlər daxilində ermənilərin Qarabağı tərk etdiyini etiraf edir. Öncə 44 günlük müharibəyə nəzər salan Arutyunyan bildirir: "Hələ oktyabrın əvvəlində müharibənin nəticəsi aydın idi, lakin Ermənistanda siyasi qüvvələr döyüş fəaliyyətlərinin tez bitməsilə bağlı konsensus əldə edə bilmədilər. Həmin dövrdə Ermənistanda bir çox siyasi qüvvə müharibənin dayandırılmasını satqınlıq hesab edirdi. Müharibədə məğlubiyyətin əsas səbəbi Ermənistan rəhbərliyinin 1994-cü ildən sonra dünya təcrübəsindən dərs çıxara bilməməsidir. Ermənistan rəhbərliyinin zamanında ermənilərin böyük hissəsinin Qarabağdan getməsinə izn verməsi də ciddi səhv idi. İndi də ermənilər Qarabağı tərk edir".

Qeyd edək ki, 1989-cu il məlumatına görə, keçmiş Dağlıq Qarabağ Muxtar Respublikasında 145,5 min erməni yaşayıb. 2020-ci ilin 27 sentyabrına qədər isə rəsmi rəqəmlərdə Ermənistan keçmiş Dağlıq Qarabağda 139 min erməninin yaşadığını iddia etsə də, real rəqəm 60 min olub. 44 günlük müharibə zamanı ermənilər Azərbaycan ərazilərini tam tərk etmişdilər. 14 noyabr 2020-ci ildən başlayaraq, rus sülhməramlıları ermənilərin Qarabağa daşınmasını və onların məskunlaşması üçün bütün tədbirləri həyata keçirməyə başladı. Rəsmi məlumata görə, Qarabağa 14 noyabrdan etibarən ümumilikdə 52.7 min erməni gətirilib. Lakin gətirilənlərin bir qismi Ermənistan və Rusiyaya gedib. Hazırda Qarabağda 30 min civarında erməni yaşadığı bildirilir. Onlar da ilk fürsətdəcə buranı tərk etmək niyyətindədirlər. Bütün bunları nəzərə alaraq, Ermənistanın yeni reallıqları qəbul edib Qarabağ məsələsinin tarixə qovuşmasını anlaması və bu əsasda ölkəmizlə münasibətlər qurması vacibdir. Əks təqdirdə Ermənistan məhvə məhkumdur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**